**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ŞAHNAZ RƏCƏB qızı ASLANOVA**

# MƏİŞƏT ZORAKILIĞINA MƏRUZ QALAN QADINLARIN SOSİAL – PSİXOLOJİ PROBLEMLƏRİ

6114.01 – Sosial psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Bakı Dövlət Universitetinin “Sosial və pedaqoji” psixologiya kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | psixologiya üzrə elmlər doktoru,<br>professor **Kamilə Ramiz qızı Əliyeva** |
| Rəsmi opponentlər: | psixologiya üzrə elmlər doktoru,<br>professor **Gülnarə Kazım qızı Qurbanova** |
| | psixologiya üzrə fəlsəfə doktoru<br>**Ruhəngiz Mehman qızı Qarayeva** |
| Aparıcı təşkilat: | **Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun Sosial psixologiya şöbəsi** |

Müdafiə “_____” “_____________” 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2018-ci ildə göndərilib.

| | |
|---|---|
| FD. 02.014 Dissertasiya<br>şurasının elmi katibi | psixologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Rəşid Vəkil oğlu Cabbarov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə həllini tələb edən problemlər içərisində cəmiyyətin sivil və normal inkişafını əngəlləyən zorakılıq faktının, xüsusilə də qadınlara qarşı tətbiq edilən zorakılıq hallarının artması son dərəcə aktual problem hesab olunur. İşsizlik, əhalinin bir qisminin həddən artıq varlanması, ifrat sosial təbəqələşmə, insanların sosial ehtiyaclarının artması, kifayət qədər təmin olunmaması, fərdlərdə sosial-psixoloji dəyərlərə laqeyd münasibətin yaranması, sosial-əxlaqi dəyərlərin tənəzzülə uğraması, bir cins tərəfindən digər cinsin hüquqlarının pozulması halları keçid dövrünü xarakterizə etməklə bərabər, zorakılığı doğuran səbəb kimi də ifadə oluna bilər.

Qadınların sosial-psixoloji problemlərinin həlli istiqamətində həm milli, həm də beynəlxalq səviyyədə bir sıra müvafiq qanunların qəbul olunmasına baxmayaraq zorakılıq halları yenə də davam etməkdədir. Məişət zorakılığı da daxil olmaqla qadına qarşı zorakılıq ayrı-seçkiliyin xüsusi bir formasıdır və fundamental insan hüquqlarının pozulmasına gətirib çıxartmaqla ictimai həyatda qadınların tam və bərabərhüquqlu iştirakını məhdudlaşdıran qlobal problem olmaqla yanaşı, stabil və ədalətli dövlətin inkişafı və qorunub saxlanılması yolunda da ciddi maneədir.

Məişət zorakılığına dair məlumatların rəsmi statistikanı əks etdirmə faizi aşağı olduğu üçün real göstəriciləri əldə etmək olduqca mürəkkəb prosesdir. Ailə-məişət zəminində baş verən zorakılıq hallarının rəsmi mənbələrə məlumat verilməsi ictimai normalarla ziddiyyət təşkil etməklə bərabər, bəzən bu addımı atan qadın üçün cəzalandırılma ilə də nəticələnə bilir. Ailə sirrini yad adamlara büruzə verdiyi üçün ictimai qınağa belə məruz qalır. Belə olan halda zorakılığa meyilli tərəf üçün əlverişli zorakılıq mühiti yaranmış olur.

Məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailənin deyil, cəmiyyətin təhlükəsizliyinin əsasları üçün təhdiddir. Məişət zorakılığının total xarakter daşıması, xüsusən də bu zorakılıq hallarının patriarxat dəyər və adətlərin hökmran olduğu cəmiyyətlərdə baş verməsi cəmiyyətin və dövlətin inkişafını əngəlləyəcək qədər təhlükəlidir. Qadınlara qarşı zorakılıq hesab edilən istənilən davranış onların iqtisadi vəziyyətindən, sosial statusundan, təhsil səviyyəsindən, mədəni səviyyəsindən asılı olmayaraq bütün sosial qruplarda mövcuddur.

Cəmiyyətdə, xüsusilə də ailədə qadına qarşı zorakılığa ənənəvi yanaşma bir sıra problemlərlə müşayiət olunur. Bunların arasında ən ağırı odur ki, problemin həllinə çalışan tərəf günahı ya qismən, ya da bütövlükdə zorakılıq qurbanı olan qadında görür. Təəssüf ki, bu cür yanaşma cəmiyyətdə ictimai rəyin formalaşmasına birbaşa təsir göstərməkdədir. Zorakılıq əməlinə qiymət verən ictimai rəy və zorakılıq qurbanını əhatə edən ətraf mühit problemi çox

vaxt qadının şəxsiyyətində axtarır. Bu isə problemlə mübarizənin sərhədlərini məhdudlaşdırır. Halbuki zorakılıq qurbanının hüquqlarının bərpa olunması, onun təhlükəsizliyinin və psixi sağlamlığının təmin edilməsi birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ olmalıdır. Baş verən bu və ya digər zorakılıq hallarının aradan qaldırılması üçün onun yaranmasına təkan verən digər amillərlə yanaşı psixoloji məsələlər də diqqət mərkəzinə gətirilməli və tədqiq edilməlidir. Bu baxımdan məişət zorakılığına məruz qalmış qadınların sosial-psixoloji problemlərinin araşdırılmasını məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Məişət zoraklığı probleminin tədqiqinə dair işlərin retrospektiv təhlili göstərir ki, problemin öyrənilməsi bütün dövrlərdə aktual olmuş və problem müxtəlif istiqamətlərdə təhlil edilmişdir.

Qadınların cəmiyyətdə vəziyyəti ilə bağlı ilk nəzəri baxışların kökü qədim dövrlərə gedib çıxır. Bu baxımdan Sokrat, Platon, Aristotel, Zenon və digər filosofların düşüncələri mövzu ilə bağlı ilk fəlsəfi təsəvvürlər hesab olunur.

Azərbaycan görkəmli filosoflarından, şair və yazıçılarından, ictimai və siyasi xadimlərindən Ə.Xaqani, N.Gəncəvi, S.Urməvi, N.Tusi, İ.Nəsimi, A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, M.Rəsulzadə, Ə.Topçubaşov və b. qadınlara qarşı ailədə və cəmiyyətdə qeyri-bərabər münasibətləri öz əsərlərilə ictimaiyyətin diqqətinə çatdırmağa çalışmışlar.

Məişət zorakılığı probleminin tədqiqi zamanı tədqiqatçılar problemə əsasən iki aspektdən yanaşmışlar. Mütəxəssislərin bir qismi (T.Hobbs, J.Russo, Ş.Furye, O.Kont, M.Veber və s.) məsələyə ümumi nəzəri planda yanaşmış, digər bir qrupu isə məsələnin məhkəmə-psixoloji ekspertiza kontekstində araşdırılmasına diqqət yetirmişdir. Bu cəhətdən F.S.Safuanov, M.M.Koçenov, A.N.Naqayev, B.H. Əliyevin tədqiqatları diqqəti xüsusi olaraq cəlb edir.

2007-ci ildə T.Ban, T.Friç və S.Tarima tərəfindən ailədaxili zorakılıq mövzusu geniş tədqiq olunmuşdur. Hələ 1975-ci ildə Murrey Straus, Riçard Gelles və başqaları bu problemin milli tədqiqini həyata keçirmişlər. 1989-cu ildə Sigurman və Hotahug əvvəllər aparılmış tədqiqatların nəticələrinə istinad edərək bununla bağlı gender fərqlərini araşdırmışlar.

Respublikamızda problemlə bağlı aparılmış tədqiqatlar kifayət qədərdir (Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, R.İbrahimbəyova, H.Əlizadə, A.Abbasov, K.Əliyeva, R.Qədirova, R.Əliyev, L.Suleymanova, L.Əliyeva, İ.Allahverdiyeva, A.Seydulla, K.Şiriyeva, S.Xəlilova, S.Əliyeva və b). Bu tədqiqatlarda qadınların cəmiyyətdə rolu ətraflı təhlil edilmiş, ailədaxili konfliktlərin səbəbləri araşdırılmış, qadına qarşı münasibətdə cinsi ayrı-seçkiliyin müxtəlif formaları ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir.Lakin bu tədqiqatlarda problemin bütün aspektlərinin tədqiq olunduğunu söyləmək çətindir.Bu baxımdan da mövzu aktualdır.

**Tədqiqatın obyekti** məişət zorakılığına məruz qalmış qadınlardır (18-45 yaş aralığı).

**Tədqiqatın predmeti** məişət zorakılığının bu və ya digər növünə məruz qalmış qadınların çeşidli sosial-psixoloji problemlərinin tədqiqidir.

**Tədqiqatın məqsədi** müasir sosial-psixoloji mühitdə zorakılıq probleminin nəzəri–metodoloji əsaslarını təhlil etməklə zorakılığa məruz qalmış qadınların sosial–psixoloji xüsusiyyətlərini öyrənmək, eləcə də zorakılığın meydana çıxmasını şərtləndirən amilləri müəyyənləşdirməkdir. Zorakılıq qurbanı qadınların sosial-psixoloji reabilitasiyası üçün zəruri tövsiyyələrin verilməsi də tədqiqatın əsas məqsədini təşkil edir.

**Tədqiqatın fərziyyəsi.** Məişət zorakılığına məruzqalma faktı qadınlarda bir çox sosial-psixoloji problemlərin yaranması ilə yanaşı, onlarda emosional süstlüyə və emosiyaların qeyri-adekvat təzahürünə səbəb olur, onların özünüaktuallaşdırma imkanlarını əhəmiyyətli dərəcədə aşağı salır.

Əsas fərziyyə ilə yanaşı tədqiqatda **iki əlavə** fərziyyə də irəli sürülmüşdür:

- Erkən uşaqlıq dövründə zorakılığa məruz qalma ilə qadınların yetkin yaşda məruz qaldığı zorakılıq arasında əlaqə mövcuddur;
- Məişət zorakılığına məruz qalan qadınların sosial–demoqrafik xüsusiyyətləri ilə zorakılıq halı arasında statistik cəhətdən əhəmiyyətli əlaqə mövcuddur.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Zorakılıq problemi ilə bağlı mövcud nəzəri mənbələri araşdırmaq, bu sahədə olan fəlsəfi, sosial, psixoloji ədəbiyyatları təhlil edilməsi;
- Məişət zorakılığının baş verməsinə təkan verən sosial – psixoloji amillərin müəyyənləşdirilməsi;
- Məişət zəminində zorakılığa məruz qalan qadınların sosial-psixoloji xüsusiyyətlərinin təhlil olunması;
- Məişət zorakılığına məruz qalan qadınların sosial-psixoloji problemlərinin tədqiq edilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodikası**. Tədqiqatda zorakılıq problemini təhlil edərkən sistem struktur yanaşmadan istifadə olunmuş və müxtəlif sosial–psixoloji konsepsiyalara (L.Volker, A.Maslou, M.Ellsberg, K.Rocers, L.Berkoviç, E.Erikson) istinad edilmişdir. Tədqiqat prosesində məişət zorakılığına məruz qalan qadınların sosial–psixoloji problemlərinin aşkara çıxarılması ilə bağlı konkret vəzifələri həyata keçirmək üçün zəruri metodlardan-şəxsiyyətlərarası münasibətlərin qurulmasında emosional maneələrin diaqnostikası üçün V.V.Boyko tərəfindən hazırlanmış metodikadan, E.Şostromun özünüaktuallaşdırma sorğusundan, müşahidə, zorakılığa məruz qalan qadınlarla anket sorğusu, nəticələrin kəmiyyət və keyfiyyət təhlili həyata

keçirilmişdir.Tədqiqatda Bakı şəhərində yaşayan, 18-45 yaş aralığına malik 240 nəfər məişət zorakılığına məruz qalmış qadın iştirak etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində mövcud tədqiqatlardan fərqli olaraq məişət zorakılığına məruz qalmış qadınların sosial–psixoloji problemləri sistem struktur yanaşma prinsipinə əsaslanaraq kompleks şəkildə tədqiq edilmiş, zorakılığın təzahür etməsinə səbəb olan amillər təhlil olunmuş, zorakılığın qarşısınını alınması yolları göstərilmişdir. Bununla yanaşı zorakılığa məruz qalmış qadınların sosial-psixoloji xüsusiyyətləri təhlil olunmuş, qadınların müxtəlif sosial-demoqrafik amillərinin zorakılığa təsiri məsələləri ayırd edilmişdir. Həmçinin qadınların zorakılıq mühitində böyüməsi ilə zorakılığa məruz qalması arasında korrelyativ əlaqənin olduğu aşkarlanmışdır. Müəyyən edilmişdir ki, qadınların məişət zorakılığına məruz qalması onların özünüaktuallaşdırma səviyyələrinə əhəmiyyətli dərəcədə neqativ təsir göstərir.

**Müdafiəyə təqdim olunan müddəalar**:

1. Məişət zorakılığına məruz qalma faktı qadınların emosional sferasında müəyyən dəyişikliklər yaratmaqla şəxsiyyətlərarası münasibətlərin qurulması zamanı müxtəlif maneələrin yaranmasına səbəb olur.
2. Qadınların məişət zorakılığa məruz qalması onların müxtəlif sferalarda özünüaktuallaşdıma səviyyəsinin aşağı olması ilə nəticələnir.
3. Məişət zorakılığına məruz qalmış qadınların sosial-demoqrafik göstəriciləri ilə zorakılığa məruz qalma faktı arasında əlaqə mövcuddur. Belə ki, məişət zorakılığına məruz qalma ilə onların ailə vəziyyəti (onların evli olması), təhsil səviyyəsi, iqtisadi vəziyyəti arasında əlaqə aşkarlanmışdır.
4. Məişət zorakılığına məruz qalan qadınlar zorakılıq mühitində qalmağa davam etməsi qadınların cəmiyyətdə zorakılıq hallarının əsas günahkarı kimi qəbul edilməsi və zorakılığa etiraz edəcəyi halda davranışlarına görə ictimai qınağa məruz qalmalarıdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat nəticəsində əldə edilmiş nəzəri məlumatlar sosial psixologiya elmini yeni biliklərlə zənginləşdirir, məişət zorakılığına məruz qalan qadınların sosial, psixoloji və emosional inkişafının müəyyənləşdirilməsi sahəsində yeni elmi istiqamətlərin meydana gəlməsinə zəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti**.Tədqiqatın nəticələrindən qadın hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərən birliklərin fəaliyyətində, məişət zorakılığına məruz qalan qadınlarla psixoloji xidmət işinin təşkilində, ailə - məişət zorakılıq qurbanları üçün açılmış xüsusi sığınacaqlarda qurbanlar üçün xüsusi psixoloji, sosial məsləhətlərin verilməsində, qadınlara qarşı zorakılığın qarşısının alınması məqsədilə yaradılmış qeyri–hökümət və icma əsaslı təşkilatların fəaliyyətində zorakılığın qarşısının alınması və ləğv edilməsi sahəsində bilik və bacarıqların gücləndirilməsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işinin əsas müd-

dəaları və nəticələri Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının elmi seminarlarında və elmi – praktik konfranslarda müzakirə edilmiş, tədqiqatın başlıca məzmunu tezis və məqalələrdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ÜMUMİ MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəaları müəy-yənləşdirilmiş, aprobasiyası və quruluşu nəzərdən keçirilmişdir.

Dissertasiyanın **"Zorakılıq probleminin tədqiqinin əsas nəzəri-metodoloji əsasları"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. **"Zorakılıq anlayışının əsas sosial – psixoloji mahiyyəti"** adlanan I yarımfəsildə zorakılıq terminin etimologiyası ilə bağlı müxtəlif nəzəri mənbələrə istinad olunaraq təhlillər aparılmışdır. Burada zorakılıq fenomeni, onun sosial-psixoloji mahiyyəti, zorakılıq probleminə yanaşmaların ümumi məsələləri, ayrı – ayrı müəlliflərin zorakılıq haqqında fikir və mülahizələri nəzərdən keçirilmişdir. Bununla yanaşı, bu yarımfəsildə müxtəlif tədqiqatlara əsasən zorakılığın əsas istiqamətləri ayırd edilir.

Dissertasiyanın I fəslinin **"Zorakılıq probleminin tədqiqinin əsas istiqamətləri"** adlanan II yarımfəslində zorakılığın sosial-psixoloji mahiy-yətinin şərhi üçün bir sıra nəzəriyyələr saf-çürük edilmişdir. Burada qeyd olunur ki, ailədaxili münaqişələr zəminində həyat yoldaşı tərəfindən qadınlara qarşı törədilən zorakılığı izah etmək üçün bir sıra nəzəriyyələr mövcuddur. Bunlardan biri mikroyönümlü nəzəriyyədir. Mikroyönümlü nəzəriyyə (C.Homans, P.Blau, Q.Qarfinkel, Ç.Kuli, C.Mid, H.Blumer və s.) zorakılıq hadisəsini zorakılığı törədənin və məruz qalanın fərdi xüsusiyyətləri vasitəsilə izah edir. Öyrənmənin sosial nəzəriyyəsi (A.Bandura, 1969), psixoloji, psixopatoloji (Volpe), bioloji resursların idarə olunması nəzəriyyələri (Skinner, Torndayk və s.) zorakılığın səbəblərini ayrıca şəxsiyyətin mikrosəviyyəsində izah edir.Sosial öyrənmə nəzəriyyəsinə görə insanlara qarşı ailədaxili zorakı davranış hər hansı məqsədə nail olmanın əsas vasitəsi kimi istifadə olunur və şəxs ailədən kənarda müxtəlif informasiya vasitələrinin təsiri ilə bu və ya digər zorakılıq təzahürlərini normal davranış olaraq mənimsəyir. Bu nəzəriyyənin ən vacib elementi sosial möhkəmlənmədir. Möhkəmlənmə adı altında adətən müəyyən reaksiyanı qüvvətləndirməyə qadir hər hansı hərəkət başa düşülür. Əgər sosial möhkəmlənmə haqqında danışırıqsa digər insanlar tərəfindən idarə olunan şifahi və ya digər müraciət forması nəzərdə tutulur. Bu tərif və ya cəza,

gülümsəmə və ya istehza, dost və ya düşmən jestlər ola bilər. Bununla yanaşı aqressiv hərəkətlərin uğurluluğu köklü əhəmiyyət kəsb edir: aqressiyanın təzahürü zamanı uğura nail olmaq əhəmiyyətli şəkildə onun motivasiyasının qüvvəsini yüksəldə bilər, amma hər zaman təkrarlanan uğursuzluq –ləngimənin tendensiyasının qüvvəsini artırır.Zorakılıq probleminə sosial yanaşmada sosial mədəni təsir əsas amil kimi qəbul edilir. Yəni, zorakılıq müəyyən qrupda qəbul olunan ailə münasibətlərinin stereotipləri kimi çıxış edir. Cəmiyyətin təyin etdiyi qaydalara uyğunlaşmaq arzusu insanda həyəcan, qorxu, qəzəb, aqressiya kimi müxtəlif emosiyalara səbəb olur. Özünü cəmiyyət normalarına əməl edən kimi qələmə vermək arzusu ilə yaşayanlar, mövcud çərçivələri sındırmağa hər zaman cürət etmirlər. Bu maneələr insanın xoşbəxtliyinə ciddi əngəllər yaradır.

Qeyd etmək olar ki, məişət zorakılığı problemini tədqiq edən tədqiqatçıların əksəriyyəti (P.Burde, L.Kozer, L.Volker və b.) zorakılıq tsiklinin olduğunu vurğulayırlar. "Zorakılığa məruz qalan qadınlar" kitabının müəllifi amerikan tədqiqatçısı Leonor Volker 1979-cu ildə ilk dəfə olaraq zorakılığın tsikli modelini işləyib hazırlamışdır. O bu modeli tərtib edərkən zorakılığa məruz qalmış qadın üzərində aparılan tədqiqatların nəticələrinə istinad etmişdir. Bu nəzəriyyə bir çox ölkələrin Reabilitasiya Mərkəzlərində təcrübədən keçirildikdən sonra müsbət bir sistem kimi qəbul edilmişdir.

Aparılmış tədbirlərə baxmayaraq zorakılıq mexanizmi davam edir. Qadının təkrar inamından istifadə edən qarşı tərəf bu "qələbəni" əldə saxlamaq üçün zorakılığın digər formalarından, məsələn iqtisadi asılılıq yaratmaq, emosional təhqir etmək və s. istifadə edirlər.

Dissertasiyanın I fəslinin **"Zorakılığın baş verməsinin psixoloji mexanizmləri"** adlanan üçüncü yarımfəslində zorakılığın baş verməsini şərtləndirən, meydana çıxmasında təhrikedici rol oynayan amillərin ümumi qanunauyğunluqları əks olunmuşdur. Burada qeyd olunur ki, sosioloji nəzəriyyələr zorakılığı mövcud cəmiyyətin daxilində müəyyənləşmiş proses və normalar kontekstində nəzərdən keçirirlər. Sosial deviasiyalar sosial qanunauyğunluqlara tabedirlər və onları proqnozlaşdırmaq mümkündür. Bu istiqamətin tədqiqatçıları sırasında O.Kont, Q.de Tard, A.Ketle, E.Dürkeym, M.Veber, R.Mertonu xüsusi qeyd etmək olar.

K.Rocers, V.Frankl, F.Perlza və başqalarının əsərlərində aqressiya və zorakılığın təzahürü humanistik psixologiyaya əsasən izah və tədqiq edilir. K.Rocers hesab edir ki, aqressiya və zorakılıq fərdin azadlığının, seçim imkanlarının məhdudlaşdırılmasına onun zəruri cavab reaksiyasıdır. Aqressiya və zorakılıq psixoloji müdafiə, psixoloji maskanın növ müxtəlifliyidir. Zorakılıq orqanizmin təhlükə kimi qavranılan, fərdin özü haqqındakı təsəvvürlərinə müvafiq olmayan təcrübəyə cavabıdır. İnsan özünün qəbul edilməsinə tələbat hiss edir. Əgər o özü haqqında başqalarının fikrinə

istiqamətlənmirsə, onda bu cür qiymətləndirmələrə görə gərginlik, narahatçılıq, həyəcan keçirdir. Bu zaman insan ətrafdakıların gözləmələrini və tələblərini doğrultmağa çalışır. Ona görə də o, artıq müstəqil deyil, onun hərəkət seçimi imkanı məhdudlaşdırılır. K.Rocers isə qeyd edirdi ki, zorakılıq və aqressiya azadlığın məhdudlaşdırılmasına zəruri cavab reaksiyasıdır.

Son dövrlərdə ailədaxili zorakılığın sosial-psixoloji problem kimi müəyyən olunması hələ ilk addım hesab olunur. Bu istiqamətdə tədqiqatçılar bir sıra çətinliklərlə, məsələn, dəqiq nəzəri bazanın olmaması, onun yayılma dərəcəsi və səbəbləri haqqında dəqiq statistik göstəricilərin olmaması, zərərçəkmişin müdafiəsini tam şəkildə təmin edən strukturların olmaması və s. kimi problemlərlə üzləşməli olurlar. Ailədaxili zorakılığa səbəb olan amillərin təhlili baxımından "Ekoloji model" (Heise,1998) xüsusilə əhəmiyyətlidir. Bu modeldə bir neçə amilin bir-birilə birləşərək ailədaxili zorakılığı yaratmağa təsir etdiyi qeyd olunmuşdur. Bu amillərə erkən uşaqlıq dövründə zorakılığa məruz qalması və ya zorakılıq faktının müşahidə olunması, təhsil səviyyəsinin aşağı olması, məhdud iqtisadi imkanlar, maddə asılılığı, ictimaiyyətdə kişi zorakılığına tolerant yanaşma və s. aiddir. (S.Bott, 2005).

Dissertasiya işinin **"Qadınlara qarşı məişət zorakılığının tədqiqi istiqamətləri**" adlanan II fəsli iki yarımfəsildən ibarətdir. **"Məişət zorakılığı sosial-psixoloji hadisə kimi"** adlı birinci yarımfəsildə məişət zorakılığı ailə üzvlərindən birinin emosional, psixoloji və ya cinsi sferada nümayiş etdirdiyi davranışlar, bu davranışlara məruz qalan tərəfin isə utanc, qəzəb, kədər duyduğu və zərər gördüyü, ailənin təməlini sarsıdan, çox ciddi sosial-psixoloji problemlərin yaranmasına səbəb olan, ailənin hər bir üzvünün təsirləndiyi, həmçinin, cəmiyyətin təsirləndiyi sosial-psixoloji bir problem kimi təhlil olunmuşdur. Bu yarımfəsildə qeyd olunur ki, zorakılığın bir növü olan məişət zorakılığı dedikdə, yaxın qohumluq münasibətlərindən, birgə və əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə bir şəxsin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması başa düşülür.

Dissertasiyanın II fəslinin **"Məişət zəminində zorakılığa məruz qalmış qadınların sosial–psixoloji xüsusiyyətləri"** adlı ikinci yarımfəsildə ailədaxili zorakılığın qadın üzərində yaratdığı təsirlər təhlil olunur. Məişət zorakılığının ən çox üzərində durulan məqamlarından biri qadının ruhi sağlamlığının bu vəziyyətdən necə təsirləndiyidir. Zorakılığın qadın üzərindəki psixoloji təsirləri baş verən zorakılıq halının forması, davametmə müddəti, tezliyi, dərəcəsi, zorakılığın baş verdiyi məqamdakı proseslər, fərdin sahib olduğu mübarizə metodları və sosial dəstəyinə görə dəyişir. İlk mərhələdə emosional şok, ya da emosional donma şəklində reaksiyalara səbəb olan zorakılıq, gələcəkdə də bənzər məqamların baş vermə ehtimalı düşüncəsi ilə qorxu hissinin yaranmasına səbəb ola bilər. Zorakılığın uzunmüddət davam etdiyi vəziyyətlərdə isə güvən hissində sarsılmalar, çarəsizlik və ümidsizlik hissləri,

nəzarətin itirilməsi hissi, özünügünahlandırma və özünəhörmətin aşağı düşməsi kimi hallar tez-tez müşahidə olunur.Zorakılığa məruz qalan qadınların bu vəziyyətlə mübarizə apararkən üsulları fərqli olduğu kimi, zorakılığın davam etdiyi müddətdə bir qadının verdiyi reaksiya və cavablar da fərqli şəkildə özünü göstərir. İllərlə zorakılığa qarşı gəlməyən bir qadın zorakılığa cavab verməyə və ya mübahisə başlayarkən illər əzrində geri çəkilmə və vəziyyəti qəbul etmə nümayiş etdirə bilir. Zorakılığa məruz qalan qadının cavab reaksiyasını (uzaq durma, dayanma, xilas olma) və ya zorakılığı dayandırmağa yönəlmiş səylərini təhlil edərkən cəmiyyət ilə fərd arasında əlaqəni araşdıran sistemli bir model lazımdır. Yalnız bu formada hər bir müraciəti dəyərləndirmək və buna uyğun tədbirlər görmək mümkündür.

Dissertasiyanın **"Məişət zorakılığına məruz qalan qadınların sosial – psixoloji xüsusiyyətlərinin eksperimental psixoloji tədqiqi"** adlanan III fəsli üç yarımfəsildən ibarətdir. **"Tədqiqatın metodikasının təsviri və tədqiqatın təşkili məsələləri"** adlanan I yarımfəslində məişət zorakılığına məruz qalmış qadınların sosial-psixoloji problemlərinin aşkarlanması məqsədilə həyata keçirilən metodlar təhlil olunmuşdur. Tədqiqat Bakı şəhərində yaşayan, zorakılığın müxtəlif növlərinə məruz qalan 18-45 yaş aralığına malik 276 nəfər qadından ibarət seçmə ilə aparılsa da 240 nəfərin nəticələri tədqiqatda istifadə olundu. Tədqiqatda təqdim edilən sualları bu və ya digər səbəbdən cavablandırmaqdan imtina edən 36 qadının nəticələri qənaətbəxş olmadığından təhlil olunmadı.

Tədqiqat zamanı tətbiq edilən metodikaların ilkin qiymətləndirilməsi zamanı yaş, təhsil, ailə vəziyyəti əsas meyar kimi götürülümüşdür. Bundan başqa məişət zorakılığına məruz qalan qadınlarla həyata keçirilən sorğular əsasında qadınlara qarşı tətbiq edilən zorakılığın növü, ailədəki digər insanlarla münasibətləri, emosional sferası, valideynləri ilə emosional əlaqələri, məişət zorakılığına məruz qalan qadınların uşaqlıq dövründə cinsi istismara məruz qalıb qalmadıqları müəyyən edilmişdir.

Dissertasiyanın III fəslinin **"Alınan nəticələrin təhlili"** adlanan ikinci yarımfəslində tədqiqatın fərziyyələrinin yoxlanılması məqsədilə nəticələr kəmiyyət və keyfiyyət baxımından təhlil edilmişdir.Tədqiqatın eksperimental təşkili zamanı istifadə etdiyimiz V.V.Boykonun emosional əlaqələrin qurulması zamanı yaranan maneələrin diaqnostikası üçün nəzərdə tutulmuş metodikasının əldə olunan nəticələrinin şərhi məqsədilə müəllifin təklif etdiyi şkalalar üzrə faiz göstəriciləri ayrı–ayrılıqda hesablanmışdır.

Tədqiqatda iştirak edən 240 rəyi soruşulan qadınların şəxsiyyətlərarası münasibət zamanı yaranan emosional maneələrinin diaqnostikası metodunun şkalaları üzrə nümayiş etdirdikləri nəticələr aşağıdakı cədvəldə təqdim edilmişdir.

V.V.Boykonun metodikası üzrə əldə olunan nəticələr

Cədvəl 3.1

| № | Emosional əlaqələrin qurulması zamanı yaranan maneələr | N | % |
|---|---|---|---|
| 1. | Emosiyaları idarə edə bilməmək və onları düzgün paylamamaq | 143 | 60 |
| 2. | Emosiyaların qeyri-adekvat şəkildə təzahürü | 192 | 80 |
| 3. | Emosiyaların inkişafdan qalması, süstlüyü, kifayət qədər ifadə olunmaması | 178 | 74 |
| 4. | Neqativ emosiyaların dominantlığı | 183 | 76 |
| 5. | Emosional əsaslar ilə insanlara yaxınlaşmamaq qrzusu | 159 | 66 |

Cədvəl 3.1-dən göründüyü kimi, tədqiqatda iştirak edən qadınların şkalalar üzrə nümayiş etdirdikləri göstəricilər üzrə bir-birinə yaxın nəticələrin əldə olunması məişət zorakılığına məruz qalan qadınların emosional baxımdan qeyri-sabit vəziyyətdə olduqlarını, emosiyalarını idarə etməkdə çətinlik çəkdiklərini və emosional inkişafdan geri qalaraq müxtəlif situasiyalarda süstlük nümayiş etdirdiklərini, şəxsiyyətlərarası münasibətlərin qurulması zamanı neqativ emosiyalarının dominantlıq təşkil etdiyini müəyyən etməyə əsas verir. Metodika üzrə əldə olunan nəticələr tədqiqatda iştirak edən respondentlərin sosial-demoqrafik göstəriciləri ilə müqayisə olunmuşdur.




Şəkil 3.2. Respondentlərin sosial-demoqrafik göstəriciləri ilə V.V.Boykonun metodikası üzrə əldə etdiyi nəticə

Məişət zorakılığına məruz qalmış qadınlarda emosiyaların inkişafdan geri qalması, süstlüyü, kifayət qədər ifadə olunmaması ailə və iqtisadi vəziyyəti, təhsil səviyyəsi ilə deyil, daha çox zorakılığa məruz qalma faktının

özü ilə əlaqəlidir. Başqa sözlə desək, məişət zorakılığına məruz qalan qadınlar zorakılığa cavab reaksiyası olaraq adekvat emosional reaksiyalar nümayiş etdirəcəkləri təqdirdə təkrar zorakılıq halı ilə qarşılaşacağından qorxduqları üçün çox vaxt ozünü tənzimləməyə meyilli olaraq emosiyalarını kifayət qədər ifadə edə bilmir, nəticə etibarilə emosional süstlük nümayiş etdirirlər.

Tədqiqatın növbəti mərhələsində görkəmli Amerika psixoloqu E.Şostromun 1963-cü ildə tərtib etdiyi özünüaktuallaşdırma səviyyəsinin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuş sorğudan (Personal Orientation Inventory) istifadə olunmuşdur. Əsasını A.Maslounun və psixologiyada digər eksiztensial-humanistik istiqamətin nümayəndələrinin özünüaktuallaşdırma ideyası təşkil edən bu sorğu özünüaktuallaşdırmanın müxtəlif sferaları ilə xarakterizə olunur.

Respondentlərin ÖAT üzrə əldə etdiyi nəticə

Cədvəl 3.2.

| Özünüaktuallaşdırma (ÖAT) | N | % |
|---|---|---|
| Zamana bələdləşmə | 183 | 80 |
| Dəstək | 186 | 81 |
| Dəyərlər oriyentasiyası | 122 | 53 |
| Senzitivlik | 158 | 69 |
| Spontanlıq | 137 | 60 |
| Özünəhörmət | 169 | 74 |
| İnsan təbiəti haqqında təsəvvürlər | 148 | 65 |
| Ünsiyyətcillik | 83 | 36 |

Cədvəl 3.2.-dən göründüyü kimi, metodika üzrə respondentlərin 183 nəfəri metodikanın baza şkalası olan zamana bələdləşmə şkalası üzrə aşağı göstərici nümayiş etdirmişdir. Bu tədqiq olunan ümumi zorakılıq qurbanı qadınların 80 %-ni təşkil edir. Əldə edilən göstərici məişət zorakılığına məruz qalan qadınların zamana doğru adekvat istiqamətlənməkdə çətinlik çəkdiyini, öz emosional yaşantısının təsirindən zamanın müəyyən bir kəsiminə daha çox fokuslaşdığını, yaşadığı ümidsizlik, inciklikləр səbəbilə keçmiş yaşantılardan qurtula bilmədiyini müəyyən etməyə əsas verir.

İkinci baza şkalası olan dəstək şkalası üzrə 186 nəfər (81%) aşağı göstərici nümayiş etdirmişdir. Əldə olunan yüksək faiz göstəricisi məişət zorakılığına məruz qalan qadınların xaricdən hərəkətə gətirilən şəxsiyyət tipinə malik olduqlarını söyləməyə əsas verir. Başqa sözlə desək, onlar xarici təsirlərə daha çox meyillidirlər, daxilən azad olmadıqları üçün müstəqil addımlar atmaqda çətinlik çəkirlər, öz meyillərinə, arzu və istəklərinə əsasən davrana bilmirlər. Onlar əksər vaxtı rəğbətə, sevgi və bağlılığa ehtiyac duyurlar, ətrafdakı insanlardan asılıdırlar.

Metodikanın əlavə şkalası olan dəyərlərin oriyentasiyası şkalası üzrə 122 nəfər aşağı göstərici nümayiş etdirmişdir ki, bu tədqiq olunan qadınların 53%-ni təşkil edir. Bu göstərici məişət zorakılığına məruz qalan qadınların həyatlarını öz ideya və prinsipləri əsasında formalaşdıra bilmədiklərini söyləməyə əsas verir. Bu qadınlar xoşlarına gəlməyəni ifadə etməkdə çətinlik çəkirlər, davranışlarında şəxsi hiss və düşüncələrinə əsaslana bilmirlər. Nəticələri təhlil olunan digər bir şkala isə senzitivlik şkalasıdır. Bu şkala üzrə 158 nəfər aşağı göstərici nümayiş etdirmişdir ki, bu tədqiq olunan qadınların 69%-ni təşkil edir. Məişət zorakılığına məruz qalan bu qadınlar öz hisslərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Onlar öz hiss və yaşantılarına, tələbatlarına dərin həssaslıq nümayiş etdirə bilmirlər. Başqa sözlə, öz şəxsi yaşantı və tələbatlarına qeyri-həssas yanaşmağa meyillidirlər.

Senzitivlik şkalasına oxşar olaraq hisslər blokunun təhlil olunan digər bir şkalası spontanlıq şkalasıdır. Bu şkala üzrə 137 nəfər aşağı bal toplamışdır. Bu tədqiq olunan qadınların 60%-ni təşkil edir. Tədqiqatın nəticələri göstərir ki, məişət zorakılığına məruz qalan qadınlar öz hisslərini davranışlarında açıq şəkildə nümayiş etdirməkdə çətinlik çəkirlər. Onlar əslində olduqları və hiss etdikləri kimi davranmaqdan ehtiyat edirlər. Bu da bir neçə məsələlərlə əlaqəli ola bilər. Belə ki, onlar hisslərini ifadə edərlərsə təkrar zorakılığa məruz qalmaqdan, istədikləri kimi davranarlarsa sevilməməkdən və rəğbət görməməkdən ehtiyat edirlər. Yüksək gərginlik və stress vəziyyətində həqiqi hisslərini dərk edə bilməmələri də onların hisslər bloku üzrə niyə aşağı özünüaktuallaşdırmaya malik olduqlarını izah edir.

Metodikanın digər əlavə şkalası olan özünəhörmət şkalası üzrə 169 nəfər aşağı göstərici nümayiş etdirmişdir. Bu tədqiq olunan qadınların 74%-ni təşkil edir. Bu şkala üzrə nəticələr onu göstərir ki, məişət zorakılığına məruz qalan qadınların özünə olan hörmət səviyyələri aşağıdır. Digər bir şkala insan təbiəti haqqında təsəvvürlər şkalasıdır. Bu şkala zorakılıq tətbiq edən tərəfin şəxsiyyətinin dərk olunması, zorakılıq halına münasibətin formalaşması baxımından tədqiqat üçün vacib şkalalardan biridir. Şkala üzrə 148 nəfər aşağı bal toplamışdır ki, bu da tədqiq olunan qadınların 65%-ni təşkil edir. Şkalanın mahiyyət etibarilə insan təbiətinin, qadınlıq və kişilik stereotiplərinin dərk edilməsi ilə əlaqəli olması onu, məişət zorakılığına məruz qalan qadınların həm zorakılıq göstərən tərəf, həm də zorakılıq halı haqqında təsəvvürlərinin müəyyən edilməsində əsas meyar kimi önə çıxarır. Belə ki, tədqiq olunan qadınların 65%-i belə hesab edir ki, insan təbiət etibarilə pis və qəddardır və onun xarakterində üstünlük təşkil edən mənfi tərəflər zorakı davranışlarının formalaşmasında mühüm rol oynayır. Şər insan təbiətinə xas olan əsas xüsusiyyətdir və o gec-tez insanın davranışında özünü biruzə verəcəkdir.

Cədvəldə sonuncu şkala ünsiyyətcillik şkalasıdır. Bu şkala üzrə 83 nəfər aşağı göstərici nümayiş etdirmişdir ki, bu da tədqiq olunan qadınların 36%-ni

təşkil edir. Bu faiz göstəricisi bizə məişət zorakılığına məruz qalan qadınların onların zorakılığa məruz qalması faktı ilə ünsiyyət səviyyələri arasında yüksək əlaqə olmadığını söyləməyə əsas verir. Belə ki, məişət zorakılığına məruz qalan qadınlar zorakılığın bir forması kimi sosial mühitdən təcrid olunma və ya stress və depressiya vəziyyətində insanlardan uzaqlaşsalar da, zorakılıq bu qadınların ünsiyyət səviyyələrinə təsir edən başlıca amil deyildir. Bu şkala məişət zorakılığına məruz qalan qadınlarda ünsiyyət səviyyəsini zorakılıq nəticəsində yaranan sosial-psixoloji problem kimi deyil, qadının öz təbiəti etibarilə ünsiyyət qurarkən üzləşdiyi çətinlik kimi təhlil etməyə əsas verir. Başqa sözlə desək, yalnız 36% qadının ünsiyyət şkalası üzrə özünüaktuallaşdırma səviyyəsinin aşağı olması zorakılığın məişət zorakılığına məruz qalan qadınların ünsiyyət səviyyəsinə daha az təsir etdiyini müəyyən etməyə kömək edir.

Zorakılığa məruz qalmış qadınların təhsil səviyyəsi ilə özünüaktuallaşdırma şkalaları arasında korrelyativ əlaqə

Cədvəl 3.3 (a)

| Özünüaktuallaş-dırma şkalaları | Zamana bələdləşmə | Dəstək | Dəyərlər | İnsan təbiəti haqqında təsəvvürlər |
|---|---|---|---|---|
| Təhsil səviyyəsi | 0,452** | 0,461** | 0,537* | 0,314* |

Cədvəl 3.3 (b)

| Özünüaktual-laşdırma şkalaları | Spontanlıq şkalası | Özünəhörmət şkalası | Senzitivlik | Ünsiyyətcillik şkalası |
|---|---|---|---|---|
| Təhsil səviyyəsi | 0,516** | 0,403** | 0,246* | 0,423** |

Qeyd: **0,01 səviyyəsində, *0,05 səviyyəsində əhəmiyyətlidir.

Cədvəl 3.3-dən göründüyü kimi, məişət zorakılığına məruz qalmış qadınların təhsil səviyyəsi ilə özünüaktuallaşdırmanın əksər şkalaları arasında korrelyativ əlaqə mövcuddur. Erkən uşaqlıq dövründə zorakılığa məruz qalma ilə özünüaktuallaşdırma arasında əlaqənin müəyyənləşdirilməsi zamanı zorakılıq qurbanı qadınların uşaqlıq dövründə məruz qaldıqları bu və ya digər zorakılıq forması ilə onların özünüaktuallaşdırmanın bəzi şkalaları (zamana bələdləşmə, dəstək, özünəhörmət, senzitivlik, dəyərlərin oriyentasiyası, insan təbiəti haqqında təsəvvürlər) arasındakı əlaqə müəyyənləşdirilmişdir.

Erkən uşaqlıq dövründə zorkılığa məruz qalma ilə özünüaktuallaşdırma şkalaları arasında korrelyasiya

Cədvəl 3.4

| Özünüaktuallaşdırma Şkalaları | Zamana bələdləşmə | Dəstək | Özünəhörmət | Senzitivlik | Dəyərlər | İnsan təbiəti haqqında təsəvvürlər |
|---|---|---|---|---|---|---|
| Uşaqlıq dövründə zorakılığa məruz qalma | 0,468** | 0,316** | 0,406** | 0,315** | 0,382** | 0,315** |

Qeyd: **p<0,01 səviyyəsində əhəmiyyətlidir.

Cədvəl 3.4-dən göründüyü kimi tədqiqatda rəyi soruşulan qadınların erkən uşaqlıq dövründə zorakılığa məruz qalması ilə zamana bələdləşmə (r=0,468**), dəstək (r=316**), özünəhörmət (r=0,406**), senzitivlik (r=0,315**), dəyərlər (0,382**), insan təbiəti haqqında təsəvvürlər (r=0,315**) şkalaları arasında korrelyativ əlaqə mövcuddur. Özünüaktuallaşdırma testinin hər şkalası üzrə alınan nəticələrin etibarlığı alfa-Kronbax testi ilə yoxlanılmışdır (alpha > 0.80).

Hər şkala üzrə etibarlılıq testinin nəticələri

Cədvəl 3.5

| Şkalar | α-Kronbax |
|---|---|
| Zamana bələdləşmə | 0,951 |
| Dəstək | 0,892 |
| Dəyərlər oriyentasiyası | 0,841 |
| Senzitivlik | 0,961 |
| Spontanlıq | 0,951 |
| Özünəhörmət | 0,872 |
| İnsan təbiəti haqqında təsəvvürlər | 0,952 |
| Ünsiyyətcillik | 0,961 |

Məişət zorakılığına məruz qalan qadınların zorakılığa məruz qalma faktının intensivliyini, şiddətini, hansı dövrləri əhatə etməsini, zorakılıq subyektinin kim olmasını müəyyənləşdirmək məqsədilə sorğu həyata keçirilmişdir. Bununla yanaşı, şəxsin münasibətlər sistemi, uşaqlıq dövrünə aid xatirələri ilə əlaqədar yarımstandartlaşdırılmış müsahibələr aparılmışdır.

Zorakılığın növünə görə tədqiqatın seçməsinin nəticələri

Cədvəl 3.6

| Zorakılığın növünə görə | Say (n) | % |
|---|---|---|
| Fiziki | 175 | 72 |
| Emosional-sözlü | 231 | 96 |
| Cinsi | 82 | 34 |
| İqtisadi | 123 | 51 |
| İcitmai münasibətlərə məhdudiyyət | 161 | 67 |

Cədvəl 3.6-dan göründüyü kimi tədqiqatda respondent qismində çıxış edən məişət zorakılığı qurbanlarının demək olar ki, böyük əksəriyyəti (231 nəfər) emosional–sözlü və ya psixoloji zorakılığa məruz qalır. Zorakılığın digər növləri eyni zamanda emosional-sözlü zorakılıqla müşayiət olunduğundan bu göstəricinin yüksək nümayış olunması gözlənilən nəticədir. Məişət zorakılığına məruz qalan qadınlara görə sözlə edilən psixoloji zorakılığın ən bariz nümunəsi olan "ağılsız", "yaxşı at özünə qamçı vurdurmaz", "çirkinsən", "qayğıma qalmırsan", "mənə tay deyilsən", "əlindən bir iş gəlmir", "məndən başqa heç kimə lazım deyilsən" və s. ifadələr onlarda dəyərsizlik hissinin yaranmasına səbəb olur. Onların ifadələrinə görə hətta bəzən zorakı tərəf bu ifadələri kənar şəxslərin yanında belə səsləndirməkdən çəkinmirlər. Zorakılığın bu növünün davamlılığı onlarda özünə olan inamın azalmasına, depressiyaya, qorxu və həyəcan hissinə səbəb olur.

Sorğu zamanı müəyyən olunmuşdur ki, qadınlar həyatları boyu ən az bir dəfə olmaqla zorakılığın müxtəlif növlərinə, bəzi hallarda isə bir neçə növünə eyni anda məruz qalırlar. Həmçinin, müəyyən olunmuşdur ki, qadınlar yalnız davamlı olaraq fiziki zorakılığa məruz qaldıqları zaman hər hansısa bir dəstək mərkəzinə müraciət edir və ya zorakılığa məruz qaldığı haqda üçüncü şəxsə məlumat verirlər.

Tədqiqatda iştirak edən qadınlar arasında cinsi zorakılıq növünün digər zorakılıq növləri ilə müqayisədə daha aşağı göstəricilərinin (82 nəfər) müəyyən olunmasının kökündə gender stereotipləri dayanır.

Tədqiqatda rəyi soruşulan qadınlar düşünür ki, onlar kişinin əmlakıdır, ona məxsusdur və kişi istədiyi vaxt (hətta fiziki güc tətbiq etdikdən sonra belə) onunla cinsi münasibətdə ola bilər və bu cinayət deyil. Burada qadınlar bir məqamı da xüsusi vuğulayırlar ki, kişilər ailədə tətbiq etdikləri fiziki zorakılıq hallarını cinsi zorakılıq zəminində tənzimləyərək sanki "sevgi" nümayiş etdirirlər. Qadınların iqtisadi və ailə vəziyyəti, təhsil səviyyəsi və məruz qaldıqları zorakılıq növləri üzrə əldə olunan nəticələr arasında mövcud olan əlaqələr yoxlanıldı. Təhlillər göstərdi ki, məişət zorakılığına məruz qalan qadınların böyük əksəriyyəti məhz sözlü-emosional zorakılığa məruz qalırlar.

Zorakılığın növünə əsasən respondentlərin sosial-demoqrafik göstəriciləri

Cədvəl 3.7

| Zorakılığın növü | N (%) | Təhsilli | Təhsilsiz | İşləyir | İşləmir | Evli | Subay |
|---|---|---|---|---|---|---|---|
| | | 138 | 102 | 130 | 110 | 143 | 97 |
| Fiziki | 175 (73) | 85 | 90 | 98 | 77 | 136 | 39 |
| Psixoloji və ya emosional sözlü | 231 (96) | 130 | 101 | 129 | 102 | 143 | 88 |
| Cinsi | 82 (34) | 29 | 53 | 39 | 43 | 68 | 14 |
| İqtisadi | 123 (51) | 78 | 45 | 70 | 53 | 89 | 34 |
| İctimai münasibətlərdə məhdudiyyət | 161 (67) | 82 | 79 | 63 | 98 | 87 | 74 |

Cədvəl 3.7-dən də göründüyü kimi, ümumi respondentlərin 231 nəfəri (96%) qadın emosional–sözlü zorakılığa məruz qaldığını həm anketlərində, həm də müsahibə zamanı qeyd etmişlər. 9 nəfər qadın isə davamlı olaraq emosional-sözlü zorakılığa məruz qalmadığını qeyd etmişlər.

Tədqiqatda iştirak edən qadınların 161 nəfər (67%) qadın ictimai münasibətlərinə məhdudiyyət qoyulduğunu qeyd etmişlər. Bu qadınlar sosial əlaqələrinin məhdudlaşdırıldığını, ailə-qohum, dost-tanışlarla görüşməyə məhdudiyyətlər qoyulduğunu, hətta işləməyinə müəyyən şərtlər daxilində (yalnız iş saatında evdən çıxmaq və iş bitən kimi geri qayıtmaq, kollektivlə çox səmimi olmamaq, yeni əlaqələr yaratmamaq və s.) icazə verildiyini qeyd etmişlər.

Müəyyən olunmuşdur ki, evli qadınlar fiziki zorakılığa daha çox məruz qalır. Lakin burda diqqət edilməli olan digər məqam da ondan ibarətdir ki, dəstək mərkəzlərinə daha çox evli qadınlar müraciət edirlər. Başqa sözlə desək, subay qadınların zorakılığa məruz qalma faktı ilə bağlı daha dəqiq statistika yoxdur. Bu da iki ehtimalı nəzərdən keçirməyə əsas verir: birincisi, subay qadınlar daha az zorakılığa məruz qalır; ikincisi isə, subay qadınlar zorakılığa

məruz qalsalar da sosial dəstək mərkəzlərinə müraciət etmirlər. Sorğunun nəticələrinə əsasən subay qızlar valideynləri tərəfindən, evli qadınlar isə ailə üzvləri tərəfindən zorakılığa məruz qalırlar. Müqayisəli təhlil isə evli qadınların daha ağır və şiddətli zorakılığa məruz qaldığını aşkarlamışdır. Məişət zorakılığına məruz qalan qadınlarla həyata keçirdiyimiz sorğunun nəticələri təhlil etmək üçün ANOVA testindən istifadə olundu.

ANOVA testi

Cədvəl 3.8

| N | Sual | Yaş | | Təhsil səviyyəsi | | Ailə vəziyyəti | |
|---|---|---|---|---|---|---|---|
| | | F | P | F | P | F | P |
| 1 | Bəzi davranışlar zorakılıq göstərilməsini tələb edir | 10,007 | 0,001 | 15,321 | 0,001 | 11,088 | 0,001 |
| 2 | Zorakılığın şiddəti çox deyilsə üzürlü sayıla bilər | 9,082 | 0,001 | 19,668 | 0,001 | 15,382 | 0,001 |
| 3 | Tərbiyə məqsədilə edilən zorakılıq lazımlıdır | 12,109 | 0,001 | 28,619 | 0,001 | 16,309 | 0,001 |
| 4 | Fiziki zorakılıq varsa ər-arvad boşanmalıdır | 9,569 | 0,001 | 14,136 | 0,001 | 9,092 | 0,001 |
| 5 | Kişinin qadına zorakılıq göstərməyə haqqı var | 9,017 | 0,001 | 27,982 | 0,001 | 12,639 | 0,001 |
| 6 | Zorakılığın haqlı səbəbləri varsa üzrlü sayıla bilər | 9,569 | 0,001 | 22,927 | 0,001 | 11,463 | 0,001 |
| 7 | Zorakılıq göstərən adam həbs olunmalıdır | 3,513 | 0,004 | 3,805 | 0,001 | 1,158 | **0,324** |
| 8 | Qadın ailədaxili zorakılığa məruz qalırsa dövlət tərəfindən qorunmalıdır | 2,095 | **0,063** | 5,282 | 0,001 | 2,462 | **0,061** |
| 9 | Qadın ərinə qarşı çıxdığı zaman mütləq cəzalandırılmalıdır | 14,101 | 0,001 | 24,135 | 0,001 | 3,536 | 0,014 |
| 10 | Zorakılıq görən tərəf də eyni şəkildə zorakılıqla qarşılıq verə bilər | 6,682 | 0,001 | 1,769 | **0,102** | 3,190 | 0,023 |

Qeyd: p=0,05 səviyyəsində əhəmiyyətlidir.

Zorakılıq qurbanı qadınların zorakılığa olan münasibəti ilə yaşları arasında bir, təhsil səviyyəsi arasında bir və ailə vəziyyəti arasında iki sual istisna olmaqla p=0,05 səviyyəsində əhəmiyyətli əlaqə aşkarlanmışdır.Empirik tədqiqatdan əldə etdiyimiz nəticələrə əsasən qeyd edə bilərik ki, zorakılıq probleminə ənənəvi yanaşma tərzi cəmiyyətdə mövcud olan patriarxal

münasibətlərin olduqca dərin köklərinin olduğunu aydın göstərir. Patriarxal ənənə kişinin hökmranlığı üzərində qurulur, qadından ataya, qardaşa, ərə ciddi tabeliyi və asılılığı tələb edən gender rollarını özündə əks etdirir. Belə olan halda kişinin hökmranlığı hətta zorakılıq nümayiş etdirsə belə müzakirə olunmur.

Dissertasiyanın III fəslinin III yarımfəsli **"Məişət zorakılığına məruz qalan qadınlarla aparılan psixoloji işlər"** adlanır. Bu yarımfəsildə qeyd olunur ki, zorakılığa məruz qalmış qadınlara aparılan işlər öz spesifikliyi ilə fərqləndiyindən, kimin yardım göstərməsi (psixoloq, sosial işçi və ya digər mütəxəssis), kimə yardım göstərməsi (ailədaxili zorakılıq qurbanı, cinsi zorakılığa məruz qalmış şəxs və ya sadəcə fiziki zorakılıq qurbanı) və hansı formada yardım göstərilməsi (məsləhət, sosial dəstək) məsələləri diqqətlə öyrənilməli və planlaşdırılmalıdır.

Apardığımız tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Müxtəlif elm sahələrində aparılmış tədqiqata əsasən qeyd edə bilərik ki, zorakılıq şəxsin istəyinin əleyhinə qarşı törədilən hərəkətlərdir. Nəzəri ədəbiyyatların təhlili göstərir ki, zorakılığın ən geniş yayılmış növlərindən biri gender əsaslı zorakılıq hesab olunur. Gender əsaslı zorakılıq cəmiyyətdə qadınlarla kişilər arasında tarixən qeyri-bərabər səlahiyyət bölgüsünün təzahür formasıdır ki, bu da daha çox qadınlar üzərində hökmranlığa gətirib çıxarır və qadınların tam şəkildə tərəqqisinin qarşısının alınması ilə nəticələnir.

-Qadınlara qarşı zorakılığın ən əsas səbəbi də məhz cəmiyyətdə qadınlar və kişilər arasında bərabərsizliyin olması, dözümsüzlük və inkar mədəniyyətinin daimiləşməsi ilə əlaqədardır. Qadınlara münasibətdə ayrı-seçkilik də qüvvələrin qeyri-bərabər olmasından irəli gəlir ki, bu da onların zorakılıq hallarından can qurtarmasını çətinləşdirir.

-Apardığımız tədqiqat göstərdi ki, məişət zorakılığına məruz qalma faktı qadınların emosiyalarının qeyri-adekvat təzahürünə səbəb olmaqla onlarda emosional süstlüyə gətirib çıxarır. Bu isə şəxsiyyətlərarası ünsiyyətdə mane-ələrə səbəb olur və eyni zamanda öz emosiyalarının idarə edilməsində bacarıqsızlıq kimi özünü büruzə verir.

-Nəticələrin təhlili göstərir ki, zorakılığa məruz qalma faktı zorakılıq qurbanı qadınların daxili potensial imkanlarının üzə çıxmasına mane olmaqla yanaşı, onun uğurlu sosiallaşmasının, sərvət dəyərlərinin formalaşmasının qarşısını alır. Başqa sözlə, özünügerçəkləşdirmə imkanlarını aşağı salır.

-Təhlillər göstərir ki, zorakılığa məruz qalmış qadınlar arasında zorakılığa qarşı "qeyri-aktiv ozünü müdafiə üsulu" daha geniş yayılmışdır. Qadınlar bununla bağlı səbəbləri aşağıdakı motivlərlə əlaqələndirirdilər: qadınların özlərinin günahkar kimi qəbul olunacaqları, ictimai qınaqdan qorxmaları, ətrafdakı insanların onlara kömək edəcəyinə inamsızlığı, ailə sirrini ifşa etdiyi üçün insanlar tərəfindən qınanmaqdan qorxmaları, hətta

başqalarına zorakılıq haqqında söylədiyinə cavab olaraq zorakılıq hallarıının artmasına dair qorxuları, zorakılığın bir daha baş verməyəcəyinə dair inamsızlığı və s.

-Tədqiqat göstərdi ki, zorakılığa məruz qalmış qadınların əksəriyyəti tanıdıqları insanlar tərəfindən zorakılığa məruz qalır (ailə üzvləri, rəsmi və vətəndaş nigahında olduğu şəxs, keçmiş həyat yoldaşı və s.). Zorakılıq törədənlərə də, zərərçəkmişlərə də cəmiyyətin istənilən təbəqəsində rast gəlinir. Bununla yanaşı, təhsilli və iqtisadi vəziyyəti yüksək olan ailələrdə zorakılığın mövcudluğunu latent saxlama halına daha çox rast gəlinir.

-Məişət zəminində zorakılıq faktlarının vəziyyətinə dair aparılan araşdırmalar zamanı tədqiqatda iştirak edən qadınlar ailədə mövcud münasibətləri əsasən "yaxşı" göstəricisi ilə qiymətləndirir. Lakin müqayisəli təhlillər göstərmişdir ki, qeyd edilən "yaxşı" ənənəvi qaydalardan irəli gələn cavabdır. Bəzi hallarda hətta qadınlar zorakılığı özlərinin davranışından qaynaqlandığını qeyd edirlər.

- Təhlillər göstərir ki, məişət zorakılığı mikro səviyyədə bir ailənin həyatına təsir edən hadisə olsa da makro səviyyədə cəmiyyətin müdaxiləsinə ehtiyac yaradacaq dərəcədə problemə çevrilir. Problemin həlli istiqamətində cəmiyyət arasında maarifləndirmə işlərinin aparılması mühüm əhəmiyyət kəsb edir. Bu təşəbbüslər ictimaiyyəti məlumatlandırmağa, onların müxtəlif növ zorakılıqları tanımasına və onlara qarşı çıxmasına, etiraz etməsinə kömək edir. Qurbanlara belə hallarda haradan və necə yardım almaq, hansı növ dəstəklərin olduğu kimi məlumatlar vermək də eyni dərəcədə əhəmiyyətlidir. Zorakılığın bütün formalarının qurbanları üçün milli yardım xəttinin yaradılması əsas yardım növlərindən biri hesab edilir.

Dissertasiyanın məzmunu müəllifin dərc edilmiş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Ailədaxili zorakılığın təzahür formaları // Sivilizasiya jurnalı, Bakı, 2013, №4, s. 67-74
2. Ailədaxili zorakılığa məruz qalmış qadınların psixoloji xüsusiyyətləri // Ipək Yolu jurnalı, Bakı, 2013, №4, s.84-92
3. Qadınlara qarşı ailədaxili zorakılığın əsas səbəbləri // Psixologiya jurnalı, Bakı, 2014, №1, s.72-78
4. Qadınlara qarşı ailədaxili zorakılığın əsas tədqiqi istiqamətləri // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2014, №4, s.415-419
5. Qadınlara qarşı məişət zorakılığının əsas xüsusiyyətləri// Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2015, №4, s.390-394
6. Məişət zorakılığının əsas səbəbləri // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2015, №5, s.287-291
7. Qadınlara qarşı məişət zorakılığı əsas sosial – psixoloji problem kimi / "Çağdaş dövr və sosial elmlərin aktual problemləri". Ümumrespublika elmi-

praktik konfrans. Bakı: 2016, s.94-96

8. Бытовое насилие над женщинами как социально-психологическая проблема / Материалы II международной научно-практической конференции «Международное сотруничество для локального развития». Краматорск: 2016, с.36-39

9. Zorakılığın meydana çıxmasında mədəniyyətin rolu / Multikulturalizm Azərbaycanın dövlət siyasəti və cəmiyyətin həyat tərzidir" mövzusunda IV Beynəlxalq elmi konfrans.Bakı: 2016, s.305-309

10. Qadınlara qarşı məişət zorakılığının əsas sosial-psixoloji aspektləri // Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı, 2016, №4, s.283-287

11. Məişət zorakılığına məruz qalan qadınlarla aparılan sosial-psixoloji işlər // Bakı Qızlar Universitetinin Elmi əsərlər, Bakı, 2017, №3, s.263-266

12. Zorakılığın sosial-psixoloji mahiyyəti /// Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı, 2017, №4, s.65-72

13. Бытовое насилие над женщинами как социально-психологическая проблема // Social Problems, Oxford University Press, 2017, Issue 4 (2), p..166-173

14. Диагностика препрятсвий при формировании эмоциональных связей женщин,подвергшихся бытовому насилию // Вестник Херсонского Государственного Университет, 2017, выпуск 5, том 1, с.141-146

15. Məişət zorakılığına məruz qalan qadınlarla aparılan psixoloji işlər / Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransı. Bakı: 2017, s..184-185

Шахназ Раджаб гызы Асланова

**Социально-психологические проблемы женщин,подвергшихся домашнему насилию**

**Резюме**

Диссертация посвящена изучению одной из основных социально-психологических проблем – изучению социально-психологических проблем женщин, подвергшихся насилию в семье. В современный период в развитых и развивающихся странах проблема роста фактов насилия, особенно в отношении женщин считается чрезвычайно актуальной, мешающая цивильному и нормальному развитию общества, а также, требующая своего разрешения.

Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Во введении научно обосновываются актуальность и степень изученности темы, объект, предмет, цель и задачи, гипотеза, методологическая основа, научная новизна, научно-теоретическое и практическое значение исследования, положения, выносимые на защиту, апробация.

Первая глава диссертации под названием «Основные теоретико-методологические основы исследования проблемы насилия», посвящена анализу этимологии термина насилия, ссылаясь на различные различных теоретические источники. Здесь также раскрыты феномен насилия, его социально-психологическая сущность, некоторые подходы в изучении проблемы насилия, теоретический обзор мнений различных авторов о насилии, общие закономерности факторов, играющих провокационную роль в возникновении насилия.

Во II главе диссертации под названием « **Исследовательские направления домашнего насилия в отношении женщин**» домашнее насилие было проанализировано как социально-психологическая проблема общества, приводящая к распаду семьи, к возникновению серьезных социально-психологических проблем. Здесь также анализируются последствия насилия в семье для женщин. Одной из наиболее остро стоящих проблем домашнего насилия заключается в том, как данная ситуация влияет на психическое здоровье женщин. Психологические

последствия насилия у женщин варьируются в зависимости от формы насилия, продолжительности, частоты, от всего происходящего в момент насилия, методов защиты индивида и социальной поддержки.

В III главе **«Экспериментальное психологическое исследование социально-психологических особенностей женщин, подвергающихся домашнему насилию»,** проанализированы методы, использованные для выявления социально-психологических проблем женщин, подвергающихся насилию в семье. А также представлены обработка и интерпретация результатов по каждой методике, были сравнены общие результаты. В соответствии с этическими принципами исследовательской работы было обеспечено добровольное участие всех респондентов в исследовании.

В заключении обобщены полученные результаты исследования и предложены конкретные рекомендации. Проведенное исследование показало, что домашнее насилие на микроуровне является проблемой, которая влияет на жизнь семьи и на макроуровне становится проблемой, которая требует вмешательства общества. Необходимым является проведение в обществе просветительской работы по разрешению данной проблемы.

**Shahnaz Rajab gizi Aslanova**

# The social-psychological problems of women who have been exposed to domestic violence

## SUMMARY

The dissertation is devoted to the study of social and psychological problems of one of the main problems of social psychology – women exposed to domestic violence. In modern period, in developed and developing countries, the problem of violence that hinders the civilian and normal development of society, particularly in cases of violence against women, is an urgent problem.

The dissertation consists of introduction, three chapters, conclusion, list of used literature and supplements.

In the Introduction, the relevance of the subject the level of development, object of research, its subject, goals and objectives, assumptions, scientific novelty, theorytical and practical significance and the protected provisions are scientifically justified.

The first chapter of the dissertation, entitled "Theoretical and methodological basis of the study of violence problems" is based on various theoretical sources of etymology of the term of violence. The phenomenon of violence, its social-psychological essence, general legality of the factors that play a role in provoking the violence and the occurrence of violence have been reflected.

The chapter II of the Dissertation, entitled "The study of domectic violence against women" domestic violence has been analyzed in a social-psychological problem that has led to the disintegration of the family and has resulted in various social and psychological problems. It also analyzes the effects of domestic violence on women. One of the most pressing issues of domestic violence is how the mental health of women is affected by this situation. The psychological effects of violence on women vary according to the form of violence, duration, frequency, rate, processes at which the violence occurred, the individual's struggling methods and social support.

Chapter III, entitled "Experimental psychological study of social-psychological characteristics of women exposed to domestic violence" examines the methods used to detect social-psychological problems of women exposed to domestic violence. Separate interpretation of the results

of each methodology was considered appropriate, and overall results were compared. The voluntary participation of all respondents in the study was provided in accordance with the relevant ethical principles of the research work.

Finally, the findings of the research have been summarized and concrete proposals have been made. The research has shown that domestic violence is a problem that affects the lives of a family at a micro-level and becomes a problem that needs a community-level intervention. It is important for public awareness raising activities to address the problem.